# "Middle East Monitor" jurnalı Azərbaycanın "yaşıl iqtisadiyyat"a keçid prosesindən yazıb

Birləşmiş Krallıqda nəşr olunan "Middle East Monitor" (Yaxın Şərq Monitoru) jurnalında ABŞ-nin Corc Vaşinqton Universitetinin tələbəsi, Azərbaycanlı Tələbələr Assosiasiyasının həmtəsisçisi Kənan Məmmədovun "Azərbaycanın yaşıl iqtisadiyyata keçidi" adlı məqaləsi dərc edilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, məqalədə ekoloji cəhətdən dayanıqlılığa diqqətin artdığı bir dünyada Azərbaycan iqtisadiyyatının dinamik inkişafı üçün mühüm addımların atıldığı, zəngin neft və qaz ehtiyatları ilə tanınan ölkəmizin hazırda yaşıl, davamlı gələcəyə doğru irəlilədiyi qeyd olunub.

Məqalədə, həmçinin Azərbaycanda keçiriləcək COP29-dan bəhs edilib. Azərbaycanın COP29-a evsahibliyi etməyə hazırlaşdığı bir vaxtda bu tədbirin ölkənin davamlı inkişafında mühüm rol oynayacağı vurğulanıb. Bildirilib ki, COP29-a evsahibliyi etməklə Azərbaycan qlobal ekoloji məqsədlərə sadiqliyini bir daha təsdiqləyir və Xəzər regionunda bərpaolunan enerjinin təşviqində qabaqcıl mövqe tutur.

Azərbaycan.- 2024.- 18 may, № 103.- S.12.